# İşğaldan azad edilmiş ərazilərdə yeni inkişaf və tərəqqi modeli yaradılır



***Qarabağ uğrunda ağır döyüşlərdə zəfər qazanan Azərbaycan xalqı bu gün orada böyük həvəs və coşqu ilə düşmənin viran qoyduğu şəhər və kəndləri yenidən quraraq abadlaşdırmaqla məşğuldur. Bu, əslində doğma torpağı düşməndən azad etmək qədər hünərdir.***

Görünən budur ki, Vətən müharibəsində düşmən üzərində parlaq qələbəmiz Azərbaycan ictimaiyyətində böyük ruh yüksəkliyi yaradıb. Ölkə vətəndaşları 44 günlük savaşda olduğu kimi, işğaldan azad edilmiş ərazilərdə aparılan geniş tikinti-quruculuq işlərində də fədakarlıq nümunələri göstərirlər. Burada görülən işlərin həcmi və miqyası sadəcə hər kəsi heyran edir.

Qeyd etmək lazımdır ki. Qarabağdakı geniş bərpa, tikinti-quruculuq işləri Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyilə aparılır. Burada bir-birindən iri, kreativ layihələr icra olunur. Bu böyük işlərin uğurla başa çatacağı heç kimdə şübhə doğurmur. Dövlətimizin məqsədi məcburi köçkün ailələrinin doğma torpaqlarına qayıtmalarına şərait yaratmaqdır.

Bu, əlbəttə, böyük və xeyirxah missiyadır. Bir anlığa təsəvvür edin. Otuz ilə yaxın doğma yurd həsrətilə alışıb yanan soydaşlarımızın doğma evlərinə qayıtmalarını təmin etməkdən yaxşı nə ola bilər?! Bu işə cavabdeh olan şəxslər öz məsuliyyətlərini yaxşı başa düşürlər. Təqdirəlayiq haldır ki, görülən işlərin sürəti keyfiyyətinə mənfi təsir göstərmir.

Qarabağda yeni, modern infrastruktur yaradılır. Burada yüksək idarəetmə modeli tətbiq olunacaq. Milli Məclisin deputatı Tahir Rzayev dedi ki, möhtərəm Prezidentin liderliyilə işğaldan azad edilmiş ərazilərdə qurulan "ağıllı kəndlər" və "ağıllı şəhərlər" Azərbaycanın yüksək kreativ idarəetmə modellərinə açıq olduğunu nümayiş etdirir. Qarabağ, bütövlükdə ölkəmiz faktiki olaraq regionda yeni texnologiyalar mərkəzinə çevrilir.

Qazaxıstandan olan tanınmış şairə, Qarabağ həqiqətləri barədə rus dilində nəşr olunan bir neçə kitabın müəllifi Nasiha Qumarqızı bu günlərdə Şuşa şəhərini ziyarət edibdir. O, bu unudulmaz səfərlə bağlı təəssüratlarını bizimlə bölüşərkən dedi:

– Şuşa hər bir azərbaycanlı üçün olduğu kimi, mənim üçün də olduqca doğma və məhrəmdir. Onun uzun illər boyu düşmən əsarətində qalması hər birimizin ürəyini sızladırdı. Ürək dolusu sevinə bilmirdik. Ən xoş anlarımızda belə gözümüzün biri gülürdüsə, o biri ağlayırdı. İndi, gözəl və bənzərsiz Şuşa azaddır!

Qazaxıstanlı şairə sonra bu sözləri əlavə edib dedi ki, insan yalnız şərəfli ölkədə ləyaqətli ömür sürə bilər. Azərbaycan bu gün dünyanın ən şərəfli ölkələrindən biridir. Bu ölkənin vətəndaşları həqiqətən çox xoşbəxt insanlardır. Mən dost və qardaş Azərbaycan xalqı ilə fəxr edirəm.

Azərbaycan dövləti işğaldan azad edilmiş əraziləri yüksək dəqiqliklə düşünülmüş böyük bir proqram çərçivəsində qurur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu il yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində Qarabağda görülən tikinti-quruculuq işləri ilə bağlı demişdir: "Keçən il çox böyük proqram icra edilməyə başlanmışdır. Bu işləri sadalamaq üçün çox vaxt lazımdır. Amma əsas məsələləri mən bir daha qeyd etməliyəm, Azərbaycan vətəndaşları görsün ki, müharibədən çıxmış ölkələrin təcrübəsinə nəzər saldıqda bu, doğrudan da miqyas baxımından tarix boyu ən genişmiqyaslı proqramdır. Bu proqramın qeyd etdiyiniz kimi, özəlliyi ondadır ki, biz heç kimdən yardım istəmədən və almadan öz vəsaitimiz hesabına bunu həyata keçiririk".

Dövlətimizin başçısı sonra bildirib ki, əfsuslar olsun ki, bu günə qədər düşmənin xaincəsinə yerləşdirdiyi minalar səbəbindən biz insanları itiririk. Müharibədən sonra 200-ə yaxın Azərbaycan vətəndaşı - mülki və hərbi



vətəndaş ya həlak olub, ya da ki, ciddi yaralanıb. Ona görə də genişmiqyaslı qayıdış proqramı lazımi təhlükəsizlik tədbirləri ilə paralel həyata keçirilir.

Prezident bu barədə danışarkən demişdir: "O sahələr təmizlənməli idi ki, artıq biz bu işlərə başlaya bilək. Digər tərəfdən, baş planı hazır olan şəhərlərin də minalardan təmizlənməsi prosesi sürətlə gedir, xüsusilə Şuşa və Ağdam şəhərlərində bu proses sürətlə gedir. İlk növbədə, biz bundan başqa elektrik təsərrüfatını yaratmalıydıq. Çünki azad edilmiş torpaqların, xüsusilə dağlıq ərazilərin relyefi belədir ki, əgər orada infrastruktur olmasa, hərbçilər üçün xidmət aparmaq çox çətin olacaq, bəlkə də mümkünsüz olacaq".

Hər bir məmləkət, ilk növbədə, abad və rahat yollardan başlayır. Azərbaycan dövləti hazırda işğaldan azad edilmiş ərazilərdə geniş yol infrastrukturu yaradır. Məlum olduğu kimi, təkcə Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı - Ermənistanla həmsərhəd olan yerlərdə 700 kilometrə yaxın yol çəkilibdir. Digər yollar, Füzuli-Şuşa yolu, Zəfər yolu bir ilə çəkilibdir.

Ən son məlumatlara görə, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun tikintisi davam edir. Xatırladaq ki, həmin yol başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Xudafərin su anbarının yaxınlığından keçən hissəsindən götürür.

Onun uzunluğu 56,4 kilometrdir. Sözügedən yolun Xanlıq yaşayış məntəqəsindən ayrılaraq Qubadlı şəhərinə qədər uzunluğu 14 kilometr olan yeni avtomobil yolunun da inşası icra olunur. Qeyd edilən yolların ümumi uzunluğu isə 70,4 kilometrdir.

Xudafərin-Qubadlı-Laçın avtomobil yolu 4 hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun olaraq inşa olunur. Belə ki, hazırda yolun genişləndirilərək profilə salınması və 21,5 metr enində yeni torpaq yatağının inşası həyata keçirilir. Yolun layihə üzrə hərəkət hissəsinin eni 16,5 metr təşkil edəcək.



Artıq layihə üzrə 46 dairəvi, 12 düzbucaqlı boru və 12 yeraltı keçid tikilib, 1 040 metr istinad divarı inşa olunub. Tikinti işlərinin gələn il yekunlaşdırılması üçün əraziyə lazımi sayda qüvvə cəlb olunub. İşğaldan azad olunan Zəngilan, Qubadlı və Laçın rayonlarının ərazisindən keçən bu avtomobil yolu Qubadlı və Laçın şəhərləri də daxil olmaqla, sözügedən rayonların 30-dan artıq yaşayış məntəqəsini əhatə edir.

Qarabağda, eyni zamanda, geniş dəmir yol şəbəkəsi yaradılır. Artıq Bərdə-Ağdam dəmir yolunun inşasına başlanılıb. Horadiz-Ağbənd-Zəngəzur dəhlizinin bir parçası olan dəmir yolunun inşası da uğurla davam edir.

Hazırda Şuşa şəhərində böyük tikinti-quruculuq işləri görülür. İnfrastruktur layihələri ilə bərabər, Şuşada artıq yaşayış kompleksinin inşasına start verilib. Ağdamda, Cəbrayılda, digər rayonlarda məktəblər, xəstəxanalar, mədəniyyət müəssisələri inşa edilir. Eyni zamanda, Ağdam, Zəngilan, Hadrut, Daşaltı məscidlərinin təməli qoyulub və təmir işlərinə start verilib.

İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı məhsullarının geniş istehsalı və emalını təşkil etmək istiqamətində də bütün lazımi işlər görülür. Kənd təsərrüfatı elmləri namizədi, qocaman alim Böyükkişi Quliyev bu barədə söz düşəndə dedi ki, Qarabağ torpaqları öz münbitliyi və məhsuldarlığına görə seçilir. Sovetlər dövründə bu torpaqlarda bol taxıl, üzüm, pambıq, tərəvəz və digər kənd təsərrüfatı məhsulları yetişdirilib, heyvandarlıq intensiv metodlarla inkişaf etdirilib. B.Quliyevin fikrincə, böyük potensiala malik ərazilərin yenidən əkin dövriyyəsinə qaytarılması ölkədə aqrar sektorun inkişafına güclü təkan verəcək.

Tanınmış kulturoloq, tarix elmləri doktoru, professor Minaxanım Əsədli fəxrlə dedi ki, hamı kimi, o da Qarabağda görülən işlər barədə xəbərləri diqqətlə izləyir. Professorun sözlərinə görə, Qarabağla bağlı hər bir xoş müjdə insanın qəlbində xoş əhval-ruhiyyə yaradır.

Bəli, bu gün işğaldan azad edilmiş ərazilərimizdə bir-birindən gözəl və rahat yollar çəkilir, yaşayış binaları inşa olunur, iri aqroparklar salınır. Bütün bunlar çox sayda yeni iş yerləri deməkdir. Yaxın gələcəkdə məcburi köçkün ailələri öz doğma ata-baba yurdlarına qayıdacaqlar. Bununla da, qədim Qarabağ torpağının yeni büsatı, növrağı başlayacaq.

***Məsaim ABDULLAYEV, "Xalq qəzeti"***